## *YUSİF VƏ VAQİF SƏMƏDOĞLULARIN QƏLƏMİNDƏ SƏMƏD VURĞUN*

"Olaylar" qəzetində (16.02.2024) dərc olunan "Yusif Səmədoğlunun hekayələri: "Xəzri"dən sonra" məqaləmizdə nasirin əsərlərində atasının - Xalq şairi Səməd Vurğunun obrazının inikas xüsusiyyətlərindən söz açmışdıq. Bu yazıda isə Xalq yazıçısı Yusif Səmədoğlu ilə yanaşı qardaşı, Xalq şairi Vaqif Səmədoğlunun da yaradıcılığında Səməd Vurğunun bədii obrazının təqdimi ilə bağlı qənaətlərimizi bölüşəcəyik.

Yusif Səmədoğlunun "Gözlər" və "Güllər" hekayələrində Səməd Vurğunun bədii obrazını "ovçu şair", "xəstə şair ata" kimi yaradıldığını qeyd etmişdik. Lakin Yusif Səmədoğlu yaradıcılığında Səməd Vurğun obrazının bədii təzahürü bu hekayələrlə məhdudlaşmır. Yusif Səmədoğlunun "Qətl günü" romanı ilə bağlı tədqiqlərin, araşdırmaların cavab tapmağa çalışdığı əsas sullardan biri də məhz romandakı itmiş əlyazmanın müəllifi Sədi Əfəndinin kimliyi ilə bağlıdır. Bir sıra tədqiqatçıların fikrincə, Sədi Əfəndi obrazı Hüseyn Cavidin prototipi kimi yaradılmışdır. Vaqif Yusifli " "Qətl günü" niyə birinci oldu?" başlıqlı məqaləsində bu tendensiyaya aydınlıq gətirərək yazır: ""Qətl günü"ndə hər bir obrazın təqdimində həm ictimai-sosial, həm milli-etnik, həm də fərdi insani xüsusiyyətlər, əlamətlər qabarıq nəzərə çarpdırılır. Təbii ki, üç tarixi dövrdən söhbət açılarsa, hər bir dövrün öz tarixi koloriti nəzərə alınır. Bir sıra müəlliflər "Qətl günü"ndəki hökmdarıAğa Məhəmməd şah Qacara, edam olunan şairi Molla Pənah Vaqifə, Sədi Əfəndini Hüseyn Cavidə bənzədirlər. Bu müqayisəyə səbəb heç şübhəsiz, təsvir olunan hadisələrlə həmin tarixi dövrdə baş vermiş hadisələrin müəyyən oxşarlığıdır."

Akademik Nizami Cəfərov 2015-ci ildə "Elm və Təhsil" nəşriyyatında çap olunan "Səməd Vurğun... və Səmədoğlular" kitabında yazır: ""Qətl günü" romanını da təsadüfən yazmadı... Doğrudur, normativ (və kanonik) ədəbi-ictimai təfəkkür bu romanın baş qəhrəmanı kimi dahi Hüseyn Cavidi gördü, ancaq Sədi əfəndi yalnız Cavid deyildi. Və bəlkə də, daha çox Səməd Vurğun idi... Yusif Səmədoğlu "Qətl günü"ndə təsvir (və təhlil) etdiyi hadisələri ilk növbədə atasının tərcümeyi-halında görməyə, yaşamaya, analiz etməyə bilməzdi."

Akademik İsa Həbibbəyli də Yusif Səmədoğlunun "Qətl günü" romanında Səməd Vurğunun prototipinin yaradılmasının mümkünlüyünü bildirir: "Fikrimizcə, Xalq yazıçısı Yusif Səmədoğlunun "Qətl günü" romanında Azərbaycan xalqının Molla Pənah Vaqifdən Səməd Vurğunadək mürəkkəb və keşməkeşli taleyi ədəbi-tarixi baxımdan məharətlə ümumiləşdirilmişdir. Hətta bu baxımdan yanaşmaqla "Qətl günü" romanında Molla Pənah Vaqifin və Səməd Vurğunun prototipi ola biləcək obrazlar da müəyyən etmək mümkündür. Romanın uğurlu çıxmasının, ədəbiyyatımızda ədəbi hadisə səviyyəsində qəbul edilməsinin əsas səbəblərindən biri də əsərdə əks etdirilən mətləblərin, bəzi analoji məqamların, Yusif Səmədoğlu tərəfindən atası Səməd Vurğunun tərcümeyi halında və yaradıcılıq taleyində dərindən və əsaslı şəkildə görünən və görünməyən tərəflərilə müşahidə edilməsi ilə əlaqədardır"

Məti Osmanoğlu isə Yusif Səmədoğlunun "Qətl günü" ilə bağlı qələmə aldığı ssenaridən bəhs edərkən yazır: "Kino estetikasının tələbləri baxımından fikir söyləmək çətin gəlir, ancaq mətn son dərəcə maraqlı idi. "Qətl günü" romanından film üçün şair və hökmdar xətti əsas leytmotiv kimi götürülmüşdü. Şair obrazı daha çox Səməd Vurğunun şəxsiyyəti və tərcümeyi-halı ilə səsləşirdi."

Beləliklə, tədqiqatçılar Sədi Əfəndi obrazının Səməd Vurğunun prototipi olması ehtimalının mümkünlüyünü irəli sürürlər. Bizim fikrimizcə isə Sədi Əfəndi obrazında həm Səməd Vurğuna, həm də Hüseyn Cavidə xas avtobioqrafik cizgilər öz əksini tapmışdır. Bu səbəbdən Sədi Əfəndini həmin dövr milli ziyalılarımızı simvollaşdıran bir obraz kimi qəbul etmək daha düzgün olar.

Vaqif Səmədoğlunun da yaradıcılığında atası Səməd Vurğunun obrazının bədii təzahürləri ilə

qarşılaşırıq. Vaqif Səmədoğlunu atasına Yusif Səmədoğludan bir addım daha yaxın edən məqam onun da poeziyanı seçməsidir. Lakin Səməd Vurğun kimi poeziyanı seçsə də Vaqif Səmədoğlu heç bir zaman Səməd Vurğunun kölgəsində qalmadı, məhz öz fərqli dəsti-xətti ilə ədəbiyyatda tanındı.

Vaqif Səmədoğlunun atasına həsr etdiyi ilk şeirlərdən biri "Günün baxtı" (1972) adlı kitabında işıq üzü görmüş 1968-ci il möhürlü "Atamın məktublarına cavab" adlı kiçik poema idi:

Yanından keçənlər,

ayaq saxlayıb bir an

baxırlar sənə,

Səməd Vurğuna.

Mən də baxıram.

Baxıram

cavan ölmüş Məhbub nənəmin

Salahlıdan gedib

heykəl olmuş

qarayanız oğluna...

Bu poemada ata həsrətini özünəməxsus şəkildə ifadə edən Vaqif Səmədoğlunun qələmində Səməd Vurğunun tam fərqli qiyafəli obrazı ilə qarşılaşırıq. Bu atasını 17 yaşında itirən bir gəncin gözlərindən boylanan bir obrazdır. Ata ilə oğulun ünsiyyəti, oğulun atadan öyrənməli olduğu məqamlar üçün bu 17 il çox kiçik bir müddətdir. Vaqif Səmədoğlunun həyat boyu yanında olmasını istədiyi, axtardığı atasını qardaşı Yusif əvəz etdi. Lakin oğul üçün atanın yeri başqadır. Buna görə də Səməd Vurğun Vaqif Səmədoğlunun bir ömür boyu məktub yazıb məsləhət alacağı, öyrənəcəyi həsrət ünvanıdır.

Vaqif Səmədoğlunun Səməd Vurğunun ata obrazını yaratdığı məhşur poetik nümunələrdən biri "Salam, ata..." şeiridir:

Salam, ata, salam.

Bilirəm,

arxamdasan.

Məzarından cəmi əlli-altmış

addım bu yanda dayanıb

trolleybus gözləyirəm.

Trolleybusa minib,

sənin yanına

gələnə qədər

yaşamağa gedəcəyəm.

Ömür bu imiş, ata?

Gəldi...

Salam trolleybus,

əlvida ata...

Bu qısa şeirdə bütöv bir ömrün həsrəti, ağrısı çox mükəmməl ifadə olunub. Vaqif Səmədoğlu üçün atasının qəbri burulğanları içində öz yolunu tapmağa çatdığı həyat dənizində bir adadır. Bu ada sabit şəkildə onu səbrə və həsrətə dözməyə çağırır. "Yaşamağa gedən" oğulun əlvidası da müvəqqətidir. Bəlkə də insanı həsrətə dözməyə, ölümü qəbul etməyə razı salan tək ümid elə budur. Vaqif Səmədoğlunun şeirlərindən süzülən sarı rəngli həsrət yağışları da məhz həmin mübhəm ümiddən söz açır:

Ayrılma o sarı,

Yox sapsarı yağışa açılmış pəncərədən.

Gözlərini yumma islanmış yolun qarşısında.

Tutma

əllərinlə qulaqlarını,

eşit, eşit.

xəfif yarpaqlara dəyən

ağır damlaların səsini.

Bir uzaq ümidin

üzünə baxırsan bəlkə,

bəlkə sarı yağışa dönmüş

bir yuxulu həsrətlə göz-gözə,

üz-üzə dayanmısan.

Taleyin qəribə təsdüfləri, həyatın çıxılmaz, sirri çözülməz oyunları var. Səməd Vurğun adlı poeziya zirvəsi bu dünyaya xərçəngin amansız hökmü ilə əlvida dedi. Onun övladları da həmin xəstəliklə cəngləşib ömrü başa vurdular. Atalarının qalib gələ bilmədiyi düşmənlə savaşda onlar da məğlub oldular. Amma "ölüm sevinməsin qoy..". Bu gün Səməd Vurğun isimli nəhəng çinarın hər iki pöhrəsi ataları ilə bir sırada ədəbiyyatımızın qübbəsini çiyinlərində saxlayır və ədəbi irsimizi gələcəyə daşıyırlar.

***Elnarə Qaragözova***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi***
***Olaylar.- 2024.- 23-29 fevral, №7.- S.17.***